# Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının Daimi Komitəsinin sədri Çunq Eui-yong ilə görüşüb



**Aprelin 5-də Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının Daimi Komitəsinin sədri Çunq Eui-yong ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) regionda sülh, təhlükəsizlik və əməkdaşlığı təşviq edən mühüm bir platforma kimi çıxış etdiyi qeyd olunaraq, bu kimi görüşlərin çoxtərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək üçün fürsət olduğu vurğulanıb, həmçinin beynəlxalq təşkilatlarda əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb.

Milli Məclisin Sədri Sahibə Qafarova qarşı tərəfə Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi haqqında geniş məlumat verib. Spiker təşkilatın təsis konfransının keçirilməsindən ötən müddət ərzində şəbəkənin institusional inkişafı istiqamətində Azərbaycanın atdığı addımları Daimi Komitənin sədrinin diqqətinə çatdırıb. Vurğulanıb ki, Parlament Şəbəkəsi hazırda beynəlxalq əməkdaşlıq baxımından mühüm bir platformaya çevrilməkdədir.

Söhbət zamanı Parlament Şəbəkəsi ilə İCAAP arasında əməkdaşlıq əlaqələri məmnunluqla qeyd edilərək, bildirilib ki, tərəflər arasında anlaşma memorandumu imzalanıb. Hazırda İCAAP Qoşulmama Hərəkatı Parlament Şəbəkəsində müşahidəçi statusunda təmsil olunur.

Çunq Eui-yong Azərbaycanın liderliyi ilə Parlament Şəbəkəsinin inkişaf etdiyini qeyd edib. O, ölkəmizə səfərlərini məmnunluqla xatırlayaraq, Azərbaycan və paytaxtı Bakı haqqında xoş təəssüratlarını bölüşüb.

Söhbət zamanı Azərbaycanın hakim partiyası Yeni Azərbaycan Partiyasının İCAAP-da çox fəal təmsil olunduğu diqqətə çatdırılıb. Sahibə Qafarova YAP-ın İCAAP çərçivəsində fəaliyyətinə böyük əhəmiyyət verdiyini və ona hər zaman dəstək olduğunu qeyd edib. Bu təşkilatın təmsilçiləri ölkəmizdə keçirilən seçkiləri müşahidəçi qismində izləyiblər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 6 aprel (№ 66).- S.2.